Referendum xalqın iradəsinin ifadəsidir

Azərbaycan sahibkarları Konstitusiyaya təklif olunan dəyişiklikləri zamanın tələbi kimi qiymətləndirirlər

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə tarixi qayıdışı ilə həyatın bütün sahələrində fundamental dəyişikliklərin əsasını qoydu. Ulu öndərin islahatlarının vüsəti, əhatə dairəsi, ölkə həyatının ümumi mənzərəsinə təsir göstərmək imkanları yeni cəmiyyət yaradılması zərurətini qaçılmaz edirdi.

Müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyev tərəfindən inkişafın konstitusiyaya əsaslanan islahat modelinin təməli qoyulmuş, milli xüsusiyyətlər və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiq edilmişdir.

Tarixdən də məlumdur ki, iqtisadi və demokratik inkişaf sahəsində uğurlara imza atmış hər bir ölkədə istər idarəçilik formasının təkmilləşdirilməsi, istər insan hüquq və azadlıqlarının daha dolğun və hərtərəfli təminatı ilə bağlı olaraq zaman-zaman konstitusiyaya düzəlişlər edilib.

Azərbaycan Respublikasının Konstitusiyasına təklif edilən dəyişikliklər də əsas qanunumuzu inkişafda olan ictimai münasibətlərə uyğunlaşdırmağa xidmət edir.

Sosial, siyasi, iqtisadi, hüquqi, mədəni və digər sahələri əhatə edən məqsədyönlü islahatlar kompleks xarakter daşıyaraq ilk növbədə konstitusion təminatların realizəsini şərtləndirmişdir və bunun nəticəsi olaraq inkişafın Azərbaycan modelinin əsası qoyulmuşdur.

Qeyd etməliyik ki, dövri olaraq üçüncü dəfə Konstitusiyada dəyişiklik edilməsi həm də Azərbaycanda siyasi, iqtisadi, sosial inkişafın ritmik davamından xəbər verir. Ölkə qarşısında dayanan vəzifələr müəyyənləşdirilir, onlar uğurla yerinə yetirilir və növbəti müvafiq dövr üçün fəaliyyət və inkişaf proqramı qəbul edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müasir dövrdə hüquqi dövlətin inkişafının konstitusion islahat modeli uğurla həyata keçirilərək səmərəli islahatların nəticəsi kimi müasir hüquqi dövlətin hərtərəfli inkişafının və dövlət hakimiyyətinin xalqa mənsubluğunun Azərbaycan modeli formalaşmışdır.

Təklif edilən Referendum Aktında Azərbaycan Respublikası Konstitusiyasının 23 maddəsində dəyişiklik edilməsi, eyni zamanda 6 maddənin əlavə edilməsi nəzərdə tutulur. Bunlar insan hüquqları, o cümlədən iqtisadi hüquqlar, qanunvericilik hakimiyyətinin fəaliyyəti, prezidentlik institutu kimi məsələləri əhatə edir. Təhlillər göstərir ki, bunları zəruri edən səbəblər yetərincədir. Nəzərdə tutulan dəyişikliklərin dörddə üçü insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi məsələlərini özündə ehtiva edir. Məhz bu amil Konstitusiya islahatı təşəbbüsünün demokratik mahiyyətindən xəbər verir. Dəyişikliklər qüvvəyə mindikdən sonra hər kəsin hüquq və azadlıqlarının məhkəmə ilə yanaşı, inzibati qaydada da müdafiəsi Konstitusiyada öz əksini tapacaq. Həmçinin dövlət qulluqçularının qanunazidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana və onların təminatının pozulmasına görə mülki məsuliyyət də Konstitusiyada yer alacaq.

İqtisadi yüksəlişi olmayan cəmiyyətdə demokratik meyarların tətbiqi mümkün olmadığı kimi, mükəmməl hüquqi-siyasi prinsiplərin prioritet təşkil etmədiyi dövlətlərdə də əsaslı sosial-iqtisadi nailiyyətlər əldə edilə bilməz.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə irəli sürülən və bu ayın 26-da ümumxalq səsverməsinə çıxarılacaq "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsində nəzərdə tutulan təkliflər də bunu deməyə əsas verir.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar hüquqi-siyasi istiqamətdə də həyata keçirilməklə həm də sahibkarlığın inkişafına güclü təkan verəcəkdir.

Belə ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu davamlı şəkildə artırır.

İqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkan yaratmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırmışdır.

İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması da xüsusi diqqət mərkəzindədir.

Belə ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə yoxlamalar istisna olmaqla, sahibkarlıq sahəsində aparılan bütün yoxlamalar 2 il müddətinə dayandırılmışdır. Nəticədə 2015-ci ilin noyabrından 2016-cı ilin iyulunadək (vergi yoxlamaları istisna olmaqla) cəmi 49 yoxlama keçirilmişdir. Müqayisə üçün qeyd edək ki, ötən ilin müvafiq dövründə 33336 yoxlama aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apelyasiya şuralarının yaradılması da sahibkarların hüquqlarının daha etibarlı qorunmasına xidmət edir.

Göründüyü kimi, dövlətin həyata keçirdiyi iqtisadi inkişaf tədbirləri sistemli hal alır. Bütün bunlar həm də təsdiq edir ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində iqtisadi inkişaf və insan amili dayanır. Qarşıya qoyulan ən ümdə vəzifələrdən biri dövlətin və vətəndaşların baş verən neqativ halların mənfi təsirlərindən qorunmasıdır. Bu məqsədlə qarşıdan gələn dövrdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu, həm Azərbaycanın davamlı iqtisadi inkişafını təmin edəcək, həm də özündə əks-böhran tədbirlərini əks etdirməklə milli iqtisadiyyatı, sosial sferanı neqativ təsirlərdən sığortalayacaq.

İqtisadi çətinliklərin maksimum həddə çatdığı indiki vaxtda belə, dövlət nəinki əhalinin sosial müdafiəsini gücləndirir və onların bütün qayğılarını qarşılamaq üçün təxirəsalınmaz addımlar atır, həmçinin ölkənin neftdən asılılığını minimuma endirmək üçün beynəlxalq aləmdə sınaqdan çıxmış qabaqcıl təcrübə əsasında əsaslı islahatlar keçirmək istiqamətində konkret addımlar atır.

Belə ki, Vergi Məcəlləsinin torpaq vergisi ilə əlaqədar bölməsində edilmiş dəyişikliyə görə, investisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı andan mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddır.

2016-cı il yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısının qeyd etdiyi kimi, həqiqətən də 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bütövlükdə tarixi hadisədir və tarixi nailiyyətdir. Bu dövlət proqramı sahibkarlığın inkişafına böyük dəstək vermişdir. Qeyd olunan dövlət proqramı çərçivəsində son 12 il ərzində bir milyon 400 min yeni iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimidir.

Azərbaycan xarici investorların sərmayə qoyuluşu üçün cəlbedici ölkə olaraq qalır və bu il ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulmuş, bunun da nəticəsində bir sıra vacib layihələr, nəhəng infrastruktur obyektləri tikilib istifadəyə verilmiş, bölgələrdə çoxsaylı yeni sənaye müəssisələri fəaliyyətə başlamışdır. Ümumilikdə ötən il 84 mini daimi olmaqla 110 min yeni iş yeri, 2016-cı ilin altı ayında isə 78 mini daimi olmaqla 90 min iş yeri açılmışdır.

Qarşıdakı illərdə məşğulluğun artırılması məqsədilə regionlarda ənənəvi istehsal sahələrinin, o cümlədən pambıqçılığın, tütünçülüyün, baramaçılığın, eləcə də xalçaçılığın və digər sənətkarlıq növlərinin inkişaf etdirilməsi üçün müvafiq tədbirlər görüləcəkdir.

İyulun 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri sahibkarlıqla bağlı olmuşdur. Dövlət başçısı yekun nitqində bununla bağlı demişdir: "Sahibkarlığın inkişafına dövlət bundan sonra da öz dəstəyini verəcək. Bu il sahibkarlara güzəştli şərtlərlə 73 milyon manat kredit verilib. Bu vəsaitin 77 faizi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabına verilib. Dövlət büdcəsinə daha az yük düşür və kreditlərin 80 faizi aqrar sektora verilib. Bu da bizim siyasətimizi əks etdirir. Kreditlərin 74 faizi regionlara verilir. Regional inkişaf proqramının icrası sürətlə davam etdirilir". İclasda o da qeyd edildi ki, Azərbaycanda çox güclü sənaye kompleksi yaradılmış və bu il qeyri-neft sənayesi 2,4 faiz artmışdır.

Ümumiyyətlə, qeyri-neft sektorunun prioritet sahələrinə, o cümlədən iqtisadiyyatın real sektoruna maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədi ilə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə indiyədək 31 min sahibkara 1,8 milyard manat güzəştli kredit verilmişdir. Həmin kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 142 mindən çox yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlər hesabına rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması sahibkarlığın inkişafında mühüm rol oynamaqla yanaşı, ərzaq və sənaye məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsində, ölkənin ixrac potensialının artırılmasında böyük əhəmiyyətə malikdir.

Xüsusən geridə qoyduğumuz son 13 il respublikamız üçün iqtisadi baxımdan fundamental dəyişikliklərlə, davamlı yüksəlişlə, müasirləşmə və modernləşmə ilə müşayiət olunub. Bu dövrdə milli iqtisadiyyatımızın həcmi 3 dəfədən çox artmış, ölkəyə sərmayə yatırımı artmış, beynəlxalq iqtisadi inteqrasiya prosesi dərinləşmişdir.

2016-cı ilin yanvar-iyul aylarında ölkədə 32122,6 milyon manatlıq ümumi daxili məhsul istehsal edilmiş, bu dövrdə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 3340,6 manata bərabər olmuşdur. Kənd təsərrüfatında isə 3 faizdən çox artım müşahidə edilmişdir.

Cari ilin yanvar-iyul aylarında ölkə əhalisinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 8,5 faiz artaraq 25682,7 milyon manata çatmışdır. Əhalinin hər nəfərinə düşən gəlirlər isə 2670,9 manat və ya ayda orta hesabla 381,6 manat təşkil etmişdir.

Bu ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,6 faiz artaraq 489,3 manat olmuşdur.

Ölkədə həyata keçirilən qeyri-neft sektorunun inkişaf konsepsiyasında ilk növbədə hüquqi və fiziki şəxslərin qismində sahibkarların fəal iştirakına geniş meydan verilməsi, sahibkarlıq subyektlərinə dövlət tərəfindən güzəştli kreditlər şəklində verilən maddi dəstəyin ilbəil artırılması və çoxsaylı digər tədbirlər Prezident İlham Əliyevin bu sahəyə diqqətini təsdiqləyən faktların yalnız bir hissəsidir.

Ölkədə sahibkarlığın inkişafına dəstək vermək məqsədilə ötən ilin sonlarında və bu il cənab İlham Əliyevin imzaladığı mühüm dövlət sənədləri biznes mühitinin yaxşılaşdırılması istiqamətində yeni mərhələnin başlanğıcı olmuşdur.

Belə ki, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə və "Elektron lisenziya" portalının yaradılmasına başlanılıb.

İnvestisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı aparılan işlər nəticəsində sözsüz ki, sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb edilməsinə, qeyri-neft ixracının artırılmasına səbəb olacaq və bununla da həm regionların, həm də ümumilikdə qeyri-neft sektorunun inkişafına güclü təkan verəcək.

Regional inkişaf proqramları ilə yanaşı, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı", "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydalarının təkmilləşdirilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasında azad iqtisadi zonaların yaradılması haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" və digər fərman və sərəncamların, dövlət proqramlarının icrası sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır.

Qeyd olunanlarla bərabər, ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən fərdi sahibkarlar arasında qadınların sayı artmışdır. Bu gün fərdi sahibkarların 19,9 faizini qadınlar təşkil edir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, digər sahələrdə xidmətlərin göstərilməsi fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 26,6 faizi qadınlardır.

Ölkə rəhbərliyi səviyyəsində qəbul olunan və ictimai-siyasi, sosial-iqtisadi, humanitar-mədəni həyatın çoxşaxəli spektrini əhatə edən 60-a yaxın konseptual-strateji mahiyyətli sənəd və dövlət proqramları hazırda icra edilməkdədir.

Əvvəlki illərdə olduğu kimi, 2016-cı ilin 8 ayında görülən işlər və nəticələr də deməyə əsas verir ki, Azərbaycan dünyaya özünün uğurlu inkişaf modelini təqdim edə bilmiş və qısa zaman kəsiyində ölkəmizdə, sözün əsl mənasında, inqilabi yeniləşmə və tərəqqiyə nail olunmuşdur.

"Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" qanunda da bu il üçün real iqtisadi artım proqnozlaşdırılmışdır. Belə ki, son illərdə olduğu kimi, 2016-cı ildə də iqtisadi artım qeyri-neft sektorunun hesabına təmin ediləcək. Onun ümumi daxili məhsuldakı payının 2014-cü ildə 61 faizdən 2016-cı ildə 72 faizə çatacağı proqnozlaşdırılır.

Qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafında, bu sahədə istehsal və ixrac potensialının artırılmasında qeyri-neft sənayesi əhəmiyyətli rol oynayacaq. Növbəti illərdə sənayenin inkişafına dövlət dəstəyi tədbirləri daha da gücləndiriləcək, yeni istehsal sahələrinin yaranması və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması diqqət mərkəzində saxlanılacaq. Bütövlükdə qeyri-neft sənayesi üzrə 2016-2019-cu illər üzrə orta hesabla 9,2 faiz artıma nail olunacağı proqnozlaşdırılır.

Qeyri-neft sektorunun aparıcı sahələrindən olan aqrar sektor üzrə 2016-cı ildə 5,5 faiz, növbəti 3 ildə orta hesabla 5,2 faiz artım proqnozlaşdırılır. Xidmət sektorunda artımın 2016-cı ildə 4,8 faiz, növbəti üç ildə də orta hesabla 5,1 faiz təşkil edəcəyi proqnozlaşdırılır və bu sektorun ümumi daxili məhsulda payının 2014-cü ildəki 33,4 faizdən 2019-cu ildə 40,9 faizə qədər artacağı gözlənilir.

Bu il investisiya qoyuluşlarının 18,8 milyard manat, o cümlədən xarici investisiyaların 8 milyard manat olacağı, neft sektoruna 8 milyard, qeyri-neft sektoruna isə 10,8 milyard manat investisiya yatırılacağı gözlənilir. Növbəti 3 ildə isə investisiyaların 47,3 milyard manat, o cümlədən xarici investisiyaların 15,4 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır.

Göründüyü kimi, 2016-cı ildə də ölkəmizdə makroiqtisadi sabitlik, davamlı və dayanıqlı iqtisadi inkişaf təmin olunmuş, əlverişli biznes və investisiya mühiti yaradılmışdır. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan Respublikası sosial-iqtisadi inkişaf tempinə görə dünyada öncül yerlərdədir.

Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və investisiya imkanlarının təşviqi, habelə yeni bazarlara çıxış məqsədilə İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı və Azərbaycan sahibkarlarının iştirakı ilə 2015-ci ildə 84-ü xaricdə olmaqla, 261 biznes forum, sərgi və digər tədbirlər keçirilmiş, bu tədbirlərdə ölkənin investisiya mühiti barədə məlumatlar təqdim olunmuşdur.

Özəl sektorun inkişafına dövlət dəstəyinin vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsidir. Sahibkarların və sahibkarlıq fəaliyyətinə yeni başlayan şəxslərin maarifləndirilməsi, o cümlədən onlara metodiki köməyin göstərilməsi, informasiya təminatı, məsləhət və marketinq xidməti sahəsində biliklərin verilməsi məqsədilə mütəmadi olaraq Bakıda və regionlarda treninqlər, "dəyirmi masa"lar, konfrans və seminarlar keçirilir. Bunlardan əlavə, azərbaycanlı sahibkar və gənc menecerlər Almaniyada ixtisasartırma kurslarında iştirak edir, təcrübə mübadiləsi aparmaqla yanaşı, biznes əlaqələrini genişləndirirlər. Bugünədək 277 sahibkar və gənc menecer Almaniyanın müxtəlif şəhərlərində ixtisasartırma kurslarında iştirak etmişdir. Ümumiyyətlə desək, konfederasiya sahibkarların problemlərinin həll edilməsində, onların maariflənməsində daim maraqlıdır.

Azərbaycanın dünya bazarına ixrac olunan məhsullarına böyük maraq heç kəsə sirr deyil. Ona görə də ölkədə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin artırılması və dünya miqyasında brendə çevrilməsi üçün iri investisiyaların ayrılmasına ciddi ehtiyac duyulur və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Yeri gəlmişkən, Azərbaycan sahibkarlarının ölkə iqtisadiyyatının inkişafında rolu nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi qeyd olunur.

Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə olunan uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir.

Ölkə Prezidenti İlham Əliyevin sahibkarlığın inkişafı üçün imzaladığı fərmanlarla yanaşı, Azərbaycanın Konstitusiyasına dəyişiklik edilməsi çağırışı ölkə sahibkarları tərəfindən yekdilliklə dəstəklənir. Odur ki, sahibkarlarımız ümumxalq referendumunda yaxından iştirak etməyi özlərinə borc bilirlər.

Azərbaycan Konstitusiyasının hüquqi fəlsəfəsində həm də başqa bir ali məqsəd - insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı məramı dayanır.

Əvvəldə vurğulandığı kimi, Azərbaycanın inkişafı və sürətlə həyata keçirilən siyasi islahatlar bu gün Konstitusiyanı təkmilləşdirməyi zərurətə çevirib. Bir sözlə, bugünkü ictimai-siyasi vəziyyət, mövcud şərait konstitusion əsasları daha da möhkəmləndirməyi tələb edir. Çünki Konstitusiya təkcə hüquqi akt deyil, həm də ideoloji sənəddir, milli qanunvericiliyimizin mənbəyidir.

Konstitusiya hər bir ölkədə hüquqi, iqtisadi-sosial, ictimai-siyasi münasibətləri, vətəndaş azadlıqlarını və demokratik prinsipləri tənzimləyən, həmçinin qəbul olunan hər bir qanunun, normativ-hüquqi aktların ali istinad mənbəyidir. Cəmiyyət həyatı üçün olduqca əhəmiyyətli sənəd olan Əsas Qanunun dövrün müasir çağırışlarına, dinamik inkişaf edən qlobal proseslərin məntiqi təzahürlərinə daim uyğunlaşdırılması, yəni, onda zaman-zaman dəyişiklik və əlavələrin edilməsi zəruridir.

Referendum Aktı layihəsində nəzərdə tutulan əlavə və dəyişikliklərin mütərəqqi xarakter daşıdığı, demokratik standartlara tamamilə uyğun olduğu, insan və vətəndaş hüquq və azadlıqlarının təminatına, dövlət idarəçilik sisteminin təkmilləşdirilməsinə yönəldiyi ilk baxışdaca qabarıq görünür. Aktuallığı və əhəmiyyəti ilə diqqəti cəlb edən hər bir düzəliş Azərbaycanın inkişafından, yüksəlişindən və modernləşmə yolunda nail olduğu uğurlardan irəli gələn tələbatdır. Ən əsası, yeni Konstitusiya islahatında irəli sürülən təkliflər Azərbaycanın hər bir sahədə demokratik cəmiyyətlərdə qəbul olunan dəyərlərə, norma və prinsiplərə uyğun inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir.

İnanırıq ki, xalqımız qarşıdan gələn referendumda qeyd edilən məsələlərə müsbət münasibət bildirəcək və Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər dövlətimizin Konstitusiya əsaslarının möhkəmləndirilməsində və gələcək inkişafında böyük rol oynayacaqdır.

Məmməd MUSAYEV,
Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti